Bülleten No: 19 / iyul 2014

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
Məlumat Hesablama Mərkəzi

## Elektron Hökumət Portalı
your gateway to all public services

www.e-gov.az

İYUL 2014

# Elektron Hökumət Bülleteni

## Ramazan Bayramınız Mübarək!

## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə təsdiq edildi

## Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqındakı ƏSASNAMƏ-sindən bəzi müddəalar:

...

2.1.11. "elektron hökumət"in inkişafını aidiyyəti dövlət orqanları ilə birlikdə təmin edir;

2.1.12. elektron imza infrastrukturunun inkişafını və ondan geniş istifadəni təmin edir;

3.1.62. dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsini və elektron xidmətlərin göstərilməsini "elektron hökumət" portalı vasitəsilə təşkil etmək;

3.1.63. müvafiq sahədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi elektron xidmətlərin təşkilini və göstərilməsini təmin etmək;

3.1.64. elektron imza infrastrukturunun inkişafını təmin etmək, onun idarə olunmasını və bu sahədə fəaliyyətə nəzarəti həyata keçirmək, sertifikat xidmətləri mərkəzlərinin reyestrinin aparılmasını təmin etmək;

3.1.65. "elektron hökumət" layihəsinin gerçəkləşdirilməsi üçün tədbirlər görmək, o cümlədən informasiya sistemlərini və ehtiyatlarını yaratmaq, onların inteqrasiyasına dair



texniki tələb və standartların müəyyənləşdirilməsi ilə bağlı təkliflər vermək;

...

# Azərbaycan Nazirlər Kabineti (NK) ölkədə həyata keçirilən elektronlaşma istiqamətində növbəti dəyişikliyi edib – Elektron notariat

**Dəyişikliyə görə, Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sisteminin yaradılması ilə əlaqədar notariusların üzərinə əlavə öhdəlik qoyulub.**

Öncə qeyd edək ki, bu vaxta qədər notarius daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqaviləni təsdiqlədikdən sonra iki iş günü müddətində həmin müqavilənin bir nüsxəsini sifarişli poçt göndərişi vasitəsi ilə Əmlak Məsələləri Dövlət Komitəsinə göndərirdi. Lakin NK-nın son qərarına əsasən, notarius daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqaviləni təsdiqlədikdən dərhal sonra onu Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemi vasitəsilə, iki iş günü müddətində isə həmin müqavilənin bir nüsxəsini sifarişli poçt göndərişi vasitəsi ilə Əmlak Məsələləri Dövlət Komitəsinə göndərməlidir.

Eyni zamanda bundan sonra nəqliyyat vasitəsinin icarəyə verilməsinə dair müqaviləni, yaxud nəqliyyat vasitəsindən istifadə edilməsi və ya ona dair sərəncam verilməsi hüquqları ilə bağlı etibarnaməni təsdiq edərkən, notarius müqavilənin və ya etibarnamənin təsdiq edilməsi barədə məlumatı dərhal Ədliyyə Nazirliyinin "Notariat Sənədlərinin Elektron Məlumat Bankı"na deyil, "Elektron notariat" informasiya sisteminə daxil etməlidir. Ədliyyə Nazirliyi də artıq "Notariat Sənədlərinin Elektron Məlumat



Bankı"na deyil, "Elektron notariat" informasiya sisteminə daxil olmuş məlumatı texniki vasitələrdən istifadə etməklə üç gün müddətində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə göndərəcək.

Sözügedən dəyişikliyə görə, notariat hərəkətlərinin aparılmasından əvvəl notarius "Elektron notariat" informasiya sistemi vasitəsilə əqdlərin, o cümlədən etibarnamələrin və vəsiyyətnamələrin təsdiqi və ya ləğv edilməsi, habelə vərəsəlik işinin açılıb-açılmaması, mülkiyyət və vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilib-verilməməsi barədə müvafiq məlumatları yoxlamalıdır. Ədliyyə Nazirliyi ilə notariat kontorları arasında yazışmalar da "Elektron notariat" informasiya sistemi vasitəsilə həyata keçiriləcək.

www.e-gov.az

# Ramiz Mehdiyev: "Vahid elektron məlumat bazasının yaradılması vaxtında atılmış düzgün addımdır"

**Azərbaycan Şəhər, Qəsəbə, Kənd Bələdiyyələrinin Milli assosiasiyalarının təşkilatçılığı ilə iyunun 23-də "Kempinski Badamdar" otelində bələdiyyə sədrlərinin III ümumrespublika toplantısında çıxışı zamanı Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev bəzi məsələlərə toxunub:**

"Təhlillər göstərir ki, bələdiyyələrin kifayət qədər maliyyə potensialı olduğu halda, yerli vergi və ödənişlər tam toplanılmır. Bələdiyyə sədrləri daim şikayət edirlər ki, vergiləri yığa bilmirlər. Çox təəccüblüdür ki, bu günədək vergi ödəyiciləri, vergitutma obyektləri barədə bələdiyyələrdə dolğun məlumat bazası yaradılmamışdır və onların tam uçotu da aparılmır. Belə olan halda necə vergi yığmaq olar? Bu sahədə də ciddi dönüş yaradılmasına ehtiyac vardır. Milli assosiasiyaların aidiyyəti dövlət orqanları ilə birgə vergitutma obyektlərinin vahid elektron məlumat bazasının yaradılması vaxtında atılmış düzgün addımdır".




# Azərbaycan "bulud" texnologiyaları əsasında bələdiyyə vergilərinin yığımını avtomatlaşdıracaq

AKBMA

**Vergilər Nazirliyi "bulud" texnologiyaları əsasında bələdiyyə vergilərinin yığımını avtomatlaşdıracaq. Əməliyyatlar bələdiyyələrin avtomatlaşdırılmış vergi informasiya sisteminin platformasında aparılacaq.**

Nazirlik hazırda bələdiyyə vergiləri və ödənişlərinin elektron uçotunun tətbiq edilməsi üzrə pilot layihə reallaşdırır. Layihəyə 8 bələdiyyə cəlb edilib ki, onlardan beşi Bakının Binəqədi rayonunda, qalanları isə Sumqayıt şəhərində, Abşeron rayonunun Saray qəsəbəsində və Şəmkir rayonunda yerləşir. Pilot layihə ilin sonunadək reallaşdırılacaq.

Layihə çərçivəsində vergi ödəyicilərinin uçotu sisteminin avtomatlaşdırılması və mərkəzləşdirilməsi, şəhadətnamə və identifikasiya nömrələrinin verilməsi, bələdiyyə gəlirlərinin onlayn ödənişinin tətbiqi və daxili sənəd dövriyyəsi sisteminin yaradılması nəzərdə tutulur.

"Yerli (bələdiyyə) vergi və ödənişlər haqqında" qanuna edilmiş dəyişikliklərə əsasən, bələdiyyələr tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbul olunması qadağandır. Yerli vergi və ödənişlərin ödənilməsi banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçirilməlidir.

# Kənd təsərrüfatı üzrə daha üç elektron xidmət təqdim olunmuşdur

"Elektron hökumət" portalına "Bitki və bitkiçilik məhsullarının idxalına idxal karantin icazəsinin verilməsi üçün müraciət və sənədlərin qəbulu", "Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət sınağının aparılması və qeydiyyata alınması üçün müraciət və sənədlərin qəbulu" və "Bitki və bitkiçilik məhsullarının ixracına, təkrar ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına və dövriyyəsinə təkrar ixracat fitosanitar sertifikatının və fitosanitar sertifikatlarının verilməsi üçün müraciət və sənədlərin qəbulu" elektron xidmətləri inteqrasiya edilmişdir.

Bununla da "Elektron hökumət" portalında kənd təsərrüfatı sahəsi üzrə istifadədə olan xidmətlərin sayı 19-a çatmışdır.



# Tibbi arayışları "Elektron hökumət" portalından əldə etmək mümkün olacaq

"Elektron hökumət" portalına (www.e-gov.az) yeni xidmət inteqrasiya olunub.

Səhiyyə Nazirliyinin "Tibbi arayışların elektron registrindən məlumatların verilməsi" xidməti portal vasitəsilə istifadəçilərin ixtiyarına verilib. Qeyd edək ki, sözügedən elektron registr tibbi arayışların verilməsi işinin təkmilləşdirilməsi məqsədilə yaradılıb.

# ƏƏSMN əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemini ictimaiyyətə təqdim etdi




**İyunun 27-də Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 fevral tarixli Fərmanına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən hazırlanmış əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin (EİS) təqdimatı olub. Tədbirdə hökumət və qeyri-hökumət qurumlarının, sosial tərəfdaşların nümayəndələri iştirak edib.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki, Fərmana əsasən, əmək münasibətlərinin rəsmiləşdirilməsi üçün yalnız əmək müqaviləsinin bağlanması deyil, bağlanmış əmək müqaviləsi barədə bildirişin EİS-də qeydiyyata alınması və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsi əsas şərt kimi irəli sürülür: "Bununla da əmək münasibətlərinin elektron qeydiyyatı mexanizmi formalaşdırılır ki, bu da işçi və işəgötürənlər arasında bağlanmış hər bir əmək müqaviləsinin, həmin müqavilədə əmək münasibətləri üçün müəyyən edilən şərtlərə əməl olunmasına birbaşa və çevik formada dövlət nəzarətinin həyata keçirilməsinə imkan yaradır".

"Bağlanmış bütün əmək müqavilələri barədə məlumatlar artıq ƏƏSMN-nin elektron informasiya sistemində yerləşəcək və həm işəgötürənin, həm də işçinin bu müqavilələrdə müəyyən olunmuş öhdəliklərdən yayınmaları mümkün olmayacaq."

Sonra əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev yeni sistem barədə ətraflı məlumat verib. ƏƏSMN İnformasiya texnologiyaları şöbəsinin müdiri Elnur Məcidov əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemini təqdim edib. Təqdimat zamanı əmək müqaviləsi bildirişlərinin sistemə daxil edilməsi, qeydiyyatdan keçirilməsi və bu barədə işəgötürənə məlumat verilməsi proseduru əyani şəkildə nümayiş etdirilib, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycan BMT-nin "Elektron hökumət"in inkişaf səviyyəsinə görə yeni reytinqində 28 pillə irəlilədi

**BMT-nin ölkələrin "Elektron hökumət"in inkişaf səviyyəsinə görə yeni reytinqini açıqlayıb. Birləşmiş Millətlər Təşkilatının (BMT) iqtisadi və sosial məsələlər üzrə departamenti ölkələrin "Elektron hökumət"in inkişaf səviyyəsinə görə yeni "United Nations E-Government Survey 2014: E-Government for the Future We Want" reytinqini dərc edib.**

"E-Government Survey" reytinqində ölkələr "E-Government Development Index-EGDI"-dən (hakimiyyət orqanlarının informasiya texnologiyaları və rabitə texnologiyalarından əhaliyə xidmət göstərmək üçün istifadəyə görə hazırlıq və bacarığının ölçülməsi indeksi) asılı olaraq qərarlaşıb.

Riyazi baxımdan "EGDI" "Elektron hökumət"in vacib amillərini qiymətləndirən üç əsas göstəricidir: onlayn xidmətlərin genişliyi və keyfiyyəti (Online Service Index, OSI), telekommunikasiya infrastrukturunun inkişaf səviyyəsi (Telecommunication Infrastructure Index, TII) və insani kapitalın həcmi (Human Capital Index, HCI).

Ümumdünya siyahısında Azərbaycan 68-ci yeri tutaraq, əvvəlki reytinqlə müqayisədə 28 pillə irəliləyərək Çin, Türkiyə, Serbiya kimi ölkələri geridə qoyub. Azərbaycanın "EGDI" üzrə göstəricisi 0.5472 təşkil edib. Siyahıda birinci



yeri 0.9462 göstərici ilə Cənubi Koreya tutub.

Avropa regionu üzrə orta "EGDI" 0,6936, Amerika regionunda 0,5074, Asiya regionunda 0,4951, dünyada 0,4712 olub. Beləliklə, regional baxımdan ən yüksək "EGDI" göstəricisi Avropadadır.

Birinci, ikinci və üçüncü yerləri müvafiq olaraq Cənubi Koreya, Avstraliya və Sinqapur tutub. Dörd Fransa, beşinci yerdə isə Niderland qərarlaşıb. Onluğa həmçinin Yaponiya, ABŞ, Böyük Britaniya, Yeni Zelandiya və Finlandiya daxildir.

www.e-gov.az



# Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının yeni elektron xidmətləri "Elektron hökumət" portalında ən çox müraciət olunan xidmətlər oldu

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) 3 yeni elektron xidmətləri "Elektron hökumət" portalına əlavə olunub. Beəlliklə, "Ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə biliyin yekun qiymətləndirilməsi (attestasiyası) aparılan təhsilalanların TQDK-nın "Şagird-məzun sistemi"ndə özləri haqqında məlumatları internet vasitəsilə yoxlaması", "Vətəndaşların TQDK-nın rəhbərliyinin və məsul işçilərinin qəbuluna onlayn yazılması" və "Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi" xidmətləri portal üzərindən təqdim edilir.

Birinci xidmət əsas və ya tam orta təhsil müəssisələrinin buraxılış siniflərində təhsil alan şagirdlərin məlumat bazalarının dəqiqləşdirilməsi üçün nəzərdə tutulub.

İkinci qeyd olunan xidmət vasitəsilə vətəndaşların komissiya rəhbərliyinin və məsul işçilərinin qəbuluna onlayn qeydiyyatının aparılması həyata keçirilir.

Üçüncü xidmət isə orta təhsil müəssisələrinin buraxılış və ali və orta ixtisas təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edən şəxslərə imtahan buraxılış vərəqələrinin internet vasitəsilə onlayn rejimdə verilməsini əhatə edir.

Bundan sonra abituriyentlər (bakalavrlar, namizədlər (rezidenturaya sənəd verənlər) əlavə vaxt itkisinə yol vermədən "Elektron hökumət" portalına daxil olmaqla TQDK-nın sözügedən xidmətlərindən asanlıqla yararlana biləcəklər.

Qeyd olunan e-xidmətlərin nə qədər əhəmiyyət kəsb etməsi bu xidmətlərdən istifadə statistikasında da öz əksini tapmışdır. Belə ki, 2014-cü ilin iyun ayı ərzində "Elektron hökumət" portalı üzərindən TQDK-nın e-xidmətlərindən 115510 dəfə istifadə edilmişdir.

"Elektron hökumət" portalı ilə TQDK arasında əməkdaşlığın daha da səmərəli inkişaf etməsi üçün gələcəkdə də bütün lazımi tədbirlər görüləcəkdir.

# Məhkəmələrdə protokollar elektron qaydada hazırlanacaq

## Azərbaycan məhkəmələrində protokollar elektron qaydada hazırlanacaq



Bu barədə Yasamal Məhkəməsinin hakimi, Avropa Şurası Ədalət Mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) eksperti Ramin Qurbanov məlumat verib.

O, bildirib ki, protokolların elektron qaydada hazırlanması hakimlərin vaxtına qənaət edilməsinə gətirib çıxardacaq.

"Bəs nə zaman Azərbaycanda bütün məhkəmə sistemi elektron məhkəmə sisteminə qoşulacaq"- sualını cavablandıran R.Qurbanov deyib ki, onlar məhkəmələrin bütün binalarının monitorinqini aparacaqlar və binaların elektron məhkəmə sisteminin tətbiqinə nə dərəcədə hazır olduğunu öyrənəcəklər: "Əsas deyil ki, binalar sökülsün, bu binaların elektron məhkəmə sisteminə uyğunlaşdırılmasına çalışacağıq. .... Paralel olaraq məlumat, ehtiyat mərkəzləri də yaradılmalı, hakimlərə təlimlər keçirilməlidir. Bakıda və regionlarda məhkəmələrin bir kompleksdə yerləşdirilməsinə çalışılacaq".

# Hakimlər elektron məhkəmə sistemində işləməyi öyrənirlər"

**"Azərbaycanda 14 hakimə 16 min iş daxil olur. Hakim ayda 100 işə baxmalıdır. Texniki imkanlar olmasa, bu, süründürməçiliyə gətirır çıxarır".**

Bu fikirləri "Açıq hökumət: "Elektron Məhkəmə" İnformasiya sisteminin qurucuIuğunun İctimai Müzakirəsi" adlı konfransda Məhkəmə Hakimləri Assosiasiyasının sədri, Yasamal Rayon Məhkəməsinin sədri Əlǝddin Cəfərov söyləyib. Onun sözlərinə görə, məhkəmə sistemində tətbiq olunan informasiya-kommunikasiya texnologiyaları vətəndaşlara imkan yaradacaq ki, evindən çıxmadan ərizələri göndərə və sənədləri ala bilsin. Ə.Cəfərov qeyd edib ki, elektron məhkəmə təkcə bu sahədə çalışanlara deyil, ümumilikdə hər kəs üçün faydalı olacaq:

"Məhkəmələrə daxil olan ərizələrin 50 faizi öz iddiasına münasibətin düzgün formamalaşmaması ilə bağlıdır. Biz məhkəmədə vətəndaşa desək ki, iddianızın əsası yoxdur, uduzacaqsınız, onda məhkəməni ədalətsizlikdə günahlandırmağa başlayacaq. Qərarlarda hakimlər yanlışlığa yol verə bilər, ancaq vətəndaşlar müxtəlif orqanlara şikayət verir, sonra da aidiyyəti üzrə məhkəmələrə gəlir. Biz sadəcə, neçə min ərizəni qeydiyyata almaqla məşğuluq. Bunlar da bizim vaxtımızı çox alır. Ona görə də yeni texnologiyaların tətbiqi günün tələbidir. Artıq 2-3 aydan sonra prezidentin bu sahədə imzaladığı sərəncam pilot məhkəmələrdə tam tətbiq olunacaq. Digər məhkəmələrin hakimləri hazırda Yasamal Rayon Məhkəməsində bu sistemi, işi öyrənirlər".

# "Vergi ödəyiciləri ilə sual-cavab" və "Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış" xidmətləri "Elektron hökumət" portalına inteqrasiya edib



**"Vergi ödəyiciləri ilə sual-cavab" xidmətinin "Elektron hökumət" portalı üzərindən təqdimatına başlanılıb. Bu xidmət vergi ödəyicilərinin və ya vətəndaşların vergilərlə bağlı müraciətlərini vergi mütəxəssislərinə ünvanlayaraq qısa müddətdə cavab alma proseslərini əhatə edir.**

"Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış" e-xidməti "Elektron hökumət" portalına da əlavə edilib.

Bu xidmət vergi ödəyiciləri tərəfindən "Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış"ın elektron formada tərtib edilərək vergi orqanına təqdim edilməsini əhatə edir. Xidmətin göstərilməsi nəticəsində sözügedən arayış elektron formada tərtib edilərək elektron qaydada təqdim edilir və bu barədə vergi ödəyicisinə bildiriş verilir. İstifadəçiləri Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) almış şəxslər olan interaktiv növlü elektron xidmət ödənişsiz həyata keçirilir.

## "Elektron hökumət" portalının "Youtube"da videokanalı yaradılmışdır



Bu kanalda "Elektron hökumət" quruculuğuna dair videomateriallar, elektron xidmətlərdən istifadə qaydalarına dair videotəlimatlar yer almışdır. Hazırda burada hər kəs üçün faydalı ola biləcək 42 videoçarx nümayiş olunur.

Portalın "Youtube" videokanalına (www.youtube.com/elektronhokumet) linki vasitəsilə daxil olmaq mümkündür.

Qeyd edək ki, "Elektron hökumət" portalının "Facebook" (www.facebook.com/egov.az) və "Twitter" (twitter.com/e_govaz) sosial şəbəkələrində də səhifələri fəaliyyət göstərir.

## Suraxanı və Sabunçu rayonları üzrə elektron kadastr məlumat bazasının yaradılmasına dair işlər yekunlaşdırılıb

**Bakı şəhərinin Suraxanı və Sabunçu rayonları üzrə elektron kadastr məlumat bazasının yaradılmasına dair işlər müvəffəqiyyətlə yekunlaşdırılıb.**

"Bakı şəhərinin Suraxanı və Sabunçu rayonları üzrə daşınmaz əmlaklar haqqında elektron kadastr məlumat bazasının yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtibi" layihəsi çərçivəsində icraçı şirkət tərəfindən "AzCAD 2013" məlumat modelinə uyğun hazırlanan məhsullar Bakı şəhəri üzrə daşınmaz əmlaklar haqqında elektron kadastr məlumat bazasından istifadəni təmin etmək məqsədi ilə Əmlak Məsələləri Dövlət Komitəsinin tabeliyində olan İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzinə təhvil verilib.

## "Elektron hökumət" portalına daşınmaz əmlaka dair yeni xidmət əlavə edilib

Əmlak Məsələləri Dövlət Komitəsinin "Daşınmaz əmlak obyekti barədə daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsi" elektron xidməti "Elektron hökumət" portalında istifadəyə verilib. Bu xidmət daşınmaz əmlak obyekti barədə daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsi (daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi istisna olmaqla) üçün müraciətlərin elektron qaydada qəbul edilməsi və elektron xidmət istifadəçisinə daşınmaz əmlak obyekti barədə məlumatların verilməsini əhatə edir. ƏMDK-nın yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələri elektron xidməti göstərən dövlət qurumu qismində çıxış edir.

Qeyd edək ki, interaktiv növlü elektron xidmətin həyata keçirilməsi üçün ödəniş tələb olunur.

www.e-gov.az

# "Vətəndaşların e-xidmətlərdən istifadə səviyyəsi və e-xidmətlərə tələbat"




**Beynəlxalq Mətbuat Mərkəzində Multimedia Mərkəzi və Elektron xidmətlərin təşviqi üzrə İctimai Şuranın təşkilatçılığı ilə "Vətəndaşların e-xidmətlərdən istifadə səviyyəsi və e-xidmətlərə tələbat" mövzusunda ictimai müzakirə keçirilib.**

Təşkil olunan dəyirmi masada mövcud elektron xidmətlərdən istifadənin populyarlıq səviyyəsi, elektron xidmətlərdən istifadə sahəsində mövcud problemlər və onların aradan qaldırılması, elektron xidmətlərin təqdim edilməsi prosesində vətəndaşların rahatlığı və xidmətin operativliyinin təmin edilməsi, vətəndaşlar arasında elektron xidmətlərlə bağlı məlumatlılıq səviyyəsi ətrafında müzakirələr aparılması olub.

Tədbirdə mövzu ilə bağlı Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin bölmə müdiri Ulduz Xəlilova, "Elektron Hökumət" portalının əməkdaşı İlqar Abdullayevin və Multimedia Mərkəzinin direktoru, Elektron xidmətlərin təşviqi üzrə İctimai Şuranın koordinatoru Osman Gündüzün təqdimatları olub.

İctimai müzakirələrin yekunu olaraq elektorn xidmətlərin göstərilməsi sahəsində vəziyyətin yaxşılaşdırılması, bu sahədə prioritetlərin müəyyən edilməsi, elektron xidmətlər sahəsində dövlət tərəfindən yeni statistikanın aparılması, e-xidmətlərin reklam və tanıtımının dövlət qurumları tərəfindən effektiv qurulması ilə bağlı təkliflərin hazırlanması və müvafiq qurumlara təqdim edilməsi nəzərdə tutulur.

Tədbir Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və "Elektron Hökumət" Portalı ilə əməkdaşlıq şəraitində keçirilib.

# Təhsil sənədlərinin həqiqiliyinin onlayn yoxlanılması üzrə elektron xidmətlərin göstərilməsi ilə bağlı işlər davam etdirilir

**Təhsil Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin sayı artmaqdadır. Belə ki, xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyin müəyyən edilməsinin (nostrifikasiya) onlayn yoxlanılmasına başlanılıb.**

Təhsil Nazirliyinin sektor müdiri Cəsarət Valehovun sözlərinə görə, hazırda Təhsil Nazirliyi tərəfindən 5 interaktiv və 20-dən artıq informativ elektron xidmət göstərilir: "Təhsil müəssisələrinin akkreditasiyası üçün müraciətin və sənədlərin qəbulu, təhsil müəssisələrinə lisenziyaların verilməsi üçün müraciətin və sənədlərin qəbulu, eləcə də təhsil sənədlərinin həqiqiliyinin onlayn yoxlanılması üzrə elektron xidmətlərin göstərilməsi istiqamətində müvafiq işlər davam etdirilir".

# Dövlət Komissiyası onlayn sınaq test imtahanı xidmətini işə salıb

**Azərbaycan Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya "Onlayn sınaq test imtahanlarının keçirilməsi" xidmətini istifadəyə verib.**

Bu elektron xidmət inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələr üzrə dövlət qulluğuna qəbul olmaq istəyən vətəndaşlar ilə onlayn sınaq test imtahanının keçirilməsi üçün istifadə edilir. Xidmətin göstərilməsi nəticəsində vətəndaşa sınaq imtahanının nəticəsi barədə arayış verilir. Xidmətdən istifadə etmək üçün komissiyanın saytında (dqmk.gov.az və ya csc.gov.az) fəaliyyət göstərən "Elektron xidmətlər" bölməsinin istifadəçisi kimi qeydiyyatdan keçmək lazımdır.



# Elektron protokol elektron imza ilə təsdiq oluna bilər

Prezidentin təsdiq etdiyi dəyişikliklərdə yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlərə baxılmasının xüsusiyyətləri də əksini tapıb.




**Qeyd olunur ki, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar haqqında iş üzrə barəsində icraat aparılan şəxsin səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən çağırılması qadağandır.**

Məcəllənin 429-3-cü maddəsində göstərilir ki, İXM-nin 151.1, 151.2, 151.3, 151.3-1, 151.3-2, 151-1, 151-2.1, 151-3 və 158-1.3-cü maddələrində nəzərdə tutulmuş xətalar foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edildikdə, xüsusi texniki vasitələrin məlumatları müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminin proqram təminatı əsasında real vaxt rejimində elektron formada birbaşa həmin mərkəzi informasiya sisteminə ötürülür, inzibati xətanı törətmiş şəxsin iştirakı olmadan real vaxt rejimində, "Elektron imza və elektron sənəd haqqında" qanunla müəyyən edilmiş qaydada elektron sənəd şəklində inzibati xəta haqqında elektron protokol tərtib olunur və həmin mərkəzi informasiya sisteminin müvafiq səlahiyyətli əməkdaşının elektron imzası ilə təsdiqlənir. İnzibati xəta haqqında elektron protokol tərtib edildikdən dərhal sonra, xüsusi texniki vasitələrin məlumatları əlavə edilməklə, elektron qaydada müvafiq icra hakimiyyəti orqanının informasiya sisteminə göndərilir. İnzibati xəta haqqında elektron protokol müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminin məlumatlarına əsasən nəqliyyat vasitəsinin istifadəçisi (nəqliyyat vasitəsi icarə müqaviləsi və ya nəqliyyat vasitəsindən istifadə etmə və ya ona dair sərəncam vermə hüquqları ilə bağlı etibarnamə əsasında sonuncu dəfə təkrar dövlət qeydiyyatından keçirilərkən qeydiyyata götürülmüş şəxs, hüquqi şəxsin mülkiyyətində və ya istifadəsində olan nəqliyyat vasitəsinin sürücüsü, belə məlumat olmadıqda isə nəqliyyat vasitəsinin mülkiyyətçisi) barəsində tərtib edilir.

İnzibati xəta haqqında elektron protokolda bu Məcəllənin 410.1-ci maddəsində nəzərdə tutulanlarla yanaşı aşağıdakılar göstərilir:

*inzibati xətanın aşkar edilməsində istifadə olunmuş xüsusi texniki vasitələrlə əldə edilən məlumatlar (inzibati xəta hadisəsinin baş verdiyini və hansı nəqliyyat vasitəsinin sürücüsü tərəfindən törədildiyini sübut edən foto və ya video materiallar əlavə edilməklə);*

*inzibati xəta haqqında elektron protokolla əlaqədar vəsatət verilməsi qaydası;*

*inzibati cərimənin miqdarı və ödənilməsi qaydası.*

Foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilmiş inzibati xətalara görə nəqliyyat vasitəsini dayandıraraq törədilmiş belə xətalar haqqında inzibati xəta haqqında protokol tərtib etmək və ya inzibati tənbeh tətbiq etmə haqqında qərar çıxarmaq qadağandır. Bütün foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələr müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminə inteqrasiya olunaraq, həmin texniki vasitələrin köməyi ilə aşkar edilmiş inzibati xətalar haqqında yalnız bu Məcəllənin 429-3.1-ci maddəsində nəzərdə tutulmuş qaydada elektron protokol tərtib olunur.

Barəsində bu Məcəllənin 429-3.1, 429-5.5 və ya 429-5.6-cı maddələrində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında protokol tərtib edilmiş şəxs protokolda qeyd olunan cəriməni ödədikdə protokolla razılaşmış olur və həmin protokol eyni məzmunlu inzibati tənbeh vermə haqqında qərar hesab edilir.

Barəsində bu Məcəllənin 429-3.1-ci və ya 429-5.6-cı maddələrində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında protokol tərtib edilmiş şəxs səlahiyyətli orqana inzibati xətanın törədilməsi zamanı nəqliyyat vasitəsinin digər şəxsin sahibliyində və ya istifadəsində olduğu, yaxud digər şəxslərin qanunsuz əməlləri nəticəsində onun sahibliyindən çıxdığı barədə vəsatətlə müraciət edə bilər. Vəsatət inzibati xəta haqqında protokol barədə bu Məcəllənin 429-6.2.3-cü maddəsində nəzərdə tutulmuş qaydada məlumat verildiyi vaxtdan 10 gün müddətində şəxsən verilə və ya poçt, yaxud internet vasitəsilə göndərilə bilər. Vəsatət verən şəxs inzibati xətanın törədilməsi zamanı nəqliyyat vasitəsini kimin idarə etdiyinə dair ehtimalını vəsatətdə göstərə bilər. Vəsatətdə göstərilən məlumatlar təsdiq olunarsa, barəsində inzibati xəta haqqında protokol tərtib edilmiş şəxsin haqqında olan iş üzrə icraata xitam verilir və inzibati xətanı törətmiş şəxsin inzibati məsuliyyətə cəlb edilməsi üçün müvafiq tədbirlər görülür.

Barəsində bu Məcəllənin 429-3.1, 429-5.5 və ya 429-5.6-cı maddələrində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında protokol tərtib edilmiş şəxs bu Məcəllənin 429-6.2.3-cü maddəsində müəyyən olunmuş qaydada məlumatlandırıldığı vaxtdan 10 gün müddətində vəsatət vermədikdə həmin protokol inzibati tənbeh tətbiq etmə haqqında qərar hesab edilir və həmin vaxtdan 10 gün müddətində bu qərardan bu Məcəllənin 429-7.1-ci maddəsində nəzərdə tutulmuş qaydada şikayət verilə bilər.

# Elektron Hökumət portalı və Bank of Baku əməkdaşlığa başlayır

Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyilar Nazirliyinin Məlumat Hesablama Mərkəzi və "Bank of Baku" vətəndaşlara aid fərdi məlumatlar üzrə elektron arayışların verilməsinə dair birgə əməkdaşlıq haqqında müqavilə imzalayıb.

Müqavilə şərtlərinə uyğun olaraq səlahiyyətli bank əməkdaşlarına banka müraciət etmiş hər bir müştərinin yazılı razılıq ərizəsi əsasında "Elektron Hökumət" portalı üzərindən "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayış" e-xidməti vasitəsilə vətandaşın seçdiyi dövlət qurumlarının informasiya ehtiyatlarından onun haqqında fərdi məlumatların əldə olunmasına imkan yaradılacaqdır. Eyni zamanda müştəri özü haqqında fərdi məlumatları "Elektron Hökumət" portalından qeydiyyatdan keçməklə özü formalaşdıraraq banka göndərə biləcəkdir. Fərdi məlumatlar üzrə elektron arayışda vətəndaşın şəxsiyyət vəsiqəsi haqqında məlumatlar, Dövlət Sosial Müdafiə Fondu informasiya sistemlərindən məlumatlar, telefon nömrələri və borcları haqqında məlumatlar, müəllimlər, səhiyyə işçiləri və dövlət qulluğu informasiya sistemlərindən məlumatlar əks olunacaqdır. Belə ki, müştəri kağız daşıyıcısında heç bir sənəd təqdim etməsə belə onun haqqında fərdi məlumatların onun öz razılığı əsasında "Fərdi məlumatlar haqqında" Qanuna uyğun qaydada səlahiyyətli bank işçiləri tərəfindən "Elektron hökumət" portalından əldə olunması mümkün olacaq və bu məlumatlar bank tərəfindən hüquqi sənəd kimi qəbul ediləcək. Ölkəmizdə elektron xidmətlərin genişləndirilməsini nəzərə alaraq, bütün sahələrin o cümlədən bank sektorunun elektronlaşdırılması vacib məsələlərdən biridir. "Elektron hökümət" portalından fərdi məlumatlar üzrə elektron arayışların verilməsi e-xidməti banka müraciət etmiş müştərinin kreditin alınması üzrə sənədləşdirmə işinin sadələşdirilməsinə, artıq vaxt itkisinin qarşısının alınmasına, kredit təhlili zamanı müştəri haqqında informasiya uyğunsuzluğunun aradan qaldırıqmasına, kredit risklərinin minimuma azaldılmasına və bununla da kreditin rəsmiləşdirmə prosesinin daha səmərəli və effektiv şəkildə həyata keçirilməsinə səbəb olacaq.

# Sağlamlıq imkanları məhdud uşaqların təhsilində elektron təhsil texnologiyalarının tətbiqi genişləndiriləcək

Azərbaycanda əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların təhsilində elektron təhsil texnologiyalarının tətbiqi genişləndiriləcək. Həmçinin abilitasiya və reabilitasiya imkanlarını dəstəkləyən köməkçi texnologiyaların və qurğuların istifadəsinin təşviq edilməsi sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi planlaşdırılır.



Eyni zamanda əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sərbəst hərəkətini asanlaşdıran keyfiyyətli vasitələrlə, qurğularla təmin olunması nəzərdə tutulur. Brayl əlifbasını, alternativ şriftləri, surdo tərcüməni bilən peşəkar kadrların hazırlanması və təhsil müəssisələrinə cəlb edilməsi də önə çəkiləcək. Jest dilinin və alternativ ünsiyyət üsullarının və ünsiyyətin bütün digər mümkün metod və formalarının tətbiqinin genişləndirilməsi sahəsində tədbirlərin həyata keçirilməsi də diqqətdə olmalıdır.

Bu təkliflər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) hazırladığı "Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Proqramı"nda yer alıb.

Hələlik layihə şəklində olan proqram 2014-2018-ci illəri əhatə edəcək. Proqramın başlıca məqsədi əlilliyi olan şəxslərin cəmiyyətin tam hüquqlu və bərabər üzvləri olaraq qəbul olunması, onlara hörmət və ləyaqətlə davranılması, ayrı-seçkilikdən müdafiə olunmasıdır.

# “Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış mobil nömrələr barədə məlumatın verilməsi" elektron xidməti "Elektron hökumət" portalına inteqrasia edildi

## Respublika ərazisində mobil nömrə daşınması xidməti 01 fevral 2014-cü il tarixindən etibarən fəaliyyətə başlamışdır

**Bu xidmət ümumistifadəli telekommunikasiya şəbəkəsi daxilində abunəçinin istifadə etdiyi mobil telefon nömrəsinin (şəbəkə kodu - 050, 051, 055, 070, 077 və nömrəni saxlamaq şərti ilə) həmin abunəçiyə xidmət göstərən mobil operatorun şəbəkəsindən çıxarılaraq digər mobil operatorun şəbəkəsinə daşınmasına imkan yaradır.**

Xidmətin əsas məqsədi mövcud telekommunikasiya bazarında rəqabətin artırılmasına, operatorlar tərəfindən abunəçilərə göstərilən xidmət keyfiyyətinin yüksəldilməsinə, nömrə resurslarından effektiv istifadənin təmin edilməsinə, istehlakçı hüquqlarının qorunmasına, abunəçilərin daha səmərəli xidmət təşklifi təqdim edən operatorun şəbəkəsinə maneəsiz keçməsinə şərait yaratmaqdan ibarətdir.

Qeyd edirik ki, xidmətin başlamasından keçən qısa müddət ərzində ümumilikdə 6000-ə qədər mobil nömrə daşınmışdır.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) "Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış mobil nömrələr barədə məlumatın verilməsi” yeni elektron xidməti "Elektron Hökumət” portalına integrasiya edilərək istifadəçilərə təqdim olunub. Bu xidmət vasitəsilə istifadəçi, istənilən mobil nömrəni sistemə daxil edərək, həmin nömrənin hazırda hansı mobil operatorun şəbəkəsində istifadədə olması haqqında məlumat əldə edə biləcək.

MHM və "Azərikard” MMC arasında müqavilə layihəsi hazırlanır. "Azərikard” MMC-nin prossesinq mərkəzinə qoşulmuş bankların müştərilərinin mobil telefon nömrələrinə onların plastik kartlarından aparılmış ödəniş əməliyyatları barədə SMS-lərin göndərilməsi zamanı həmin mobil nömrənin hazırda hansı şəbəkədə istifadədə olmasını



bilmək vacibdir. Yuxarıda qeyd olunan e-xidmət vasitəsilə mobil nömrələrin hansı şəbəkəyə daşınması müəyyən olunaraq, nömrənin istifadədə olduğu mobil Operatora "Azərikard” MMC tərəfindən SMS göndəriləcək və həmin SMS Operator tərəfindən nömrəyə çatdırılacaq.

Mobil xidmət haqlarının internet və ya ödəniş terminalları vasitəsilə aparılması zamanı tariflərin operatora uyğun olaraq müəyyənləşdirilməsi zəruridir. Ödəniş aparan provayderlərin nömrənin hansı operatora mənsub olmasını bir mərkəzləşmiş mənbədən əldə edə bilmələri üçün də web servis hazırlanır. Servis təqdim edildikdən sonra müxtəlif kart prosessinq mərkəzləri və internet ödəniş portallarının xidmətə qoşulması gözlənilir.

Hesab edirik ki, "Elektron Hökumət” portalında istifadəyə verilmiş bu yeni e-xidmət həm də mobil nömrə daşınması xidmətinin reklam rolunu oynayacaq və bu xidmətdən istifadə edən abunəçilərin sayının artmasına təkan vermiş olacaq.

# Nar Mobile Asan İmza mobil elektron imza xidmətinin istismara verildiyini elan edir

**Mobil rabitə operatoru Nar Mobile Asan İmza mobil elektron imza xidmətinin istismara verildiyini elan etdi.**

Artıq Nar Mobile operatorunun abunəçiləri olan fiziki və hüquqi şəxslər, eləcə də dövlət qulluqçuları “Asan İmza” autentifikasiya və elektron imza şəxsi rəqəmsal açarlarının yerləşdiyi SIM kartları əldə edə bilərlər.

Dövlət və yerli özünüidarəetmə orqanları əməkdaşlarına, hüquqi və fiziki şəxslərə Asan İmza mobil elektron imza üçün təkmil sertifikatlar Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən akkreditə edilmiş Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) tərəfindən təqdim edilir.




www.e-gov.az

# Yeni imkanlar sayəsində “Elektron hökumət” portalından istifadə daha rahat olacaq




Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 may 2014-cü il tarixli 118 nömrəli qərarı ilə “Elektron hökumət” portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı” təsdiq edilmişdir

Bununla əlaqədar, RYTN MHM-in təşəbbüsü ilə 03.06.2014-cü il tarixində Ədliyyə Nazirliyində, 04.06.2014-cü il tarixində isə Əmlak Məsələləri Dövlət Komitəsində (ƏMDK) keçirilmiş birgə görüşlərdə portala inteqrasiya edilməli servislərin ilkin siyahısı hazırlanmışdır. Ədliyyə Nazirliyi və ƏMDK tərəfindən servislər hazırlanıb təqdim edildikdən sonra həmin servislərin qısa müddət ərzində portal üzərindən aidiyyəti qurumlara qoşulması MHM tərəfindən təmin ediləcəkdir. Digər qurumlarla da analoji tədbirlərin həyata keçirilməsi və qeyd olunan qərarın icrasının mümkün qədər qısa zamanda başa çatdırılması planlaşdırılır.

Dövlət qurumları tərəfindən müvafiq servislər hazırlanıb portala inteqrasiya olunduqdan sonra, vətəndaşların elektron xidmətlərdən istifadə zamanı sənədlərin skan edilərək portala göndərilməsi zərurəti aradan qalxacaq. Belə ki, vətəndaşın portalda autentifikasiya (loqin-parol, e-imza və s. vasitələrlə) olunması kifayət edəcək ki, ona aid sənədlər aidiyyəti dövlət qurumlarının məlumat bazasından avtomatik əldə olunsun.

Ümumiyyətlə, bu proses başa çatdıqdan sonra dövlət qurumları e-xidmətlərin göstərilməsi zamanı digər qurumların informasiya sistemlərindən “Elektron hökumət” portalı vasitəsilə lazımi məlumatı onlayn rejimdə əldə edə biləcəklər və bununla da əhaliyə göstərilən e-xidmətlərin elektronlaşma səviyyəsi, çeşidi və keyfiyyəti yüksəlmiş olacaq. Nəticədə əhalinin “Elektron hökumət” portalından daha səmərəli istifadəsi üçün şərait yaranmış olacaq, onların portaldan istifadəyə marağı isə daha da artacaqdır.



# Elman Mehdiyev: "Elektron hökumət" portalının statistikasına əsasən, telefon nömrəsi ilə axtarış xidmətindən sonra ən çox istifadəçi sayına malik növbəti ardıcıl gələn 6 xidmət məhz DSMF-nin göstərdiyi elektron xidmətlərə aiddir

**"Elektron hökumət" portalının statistikasına əsasən, telefon nömrəsi ilə axtarış xidmətindən sonra ən çox istifadəçi sayına malik növbəti ardıcıl gələn 6 xidmət məhz Dövlət Sosial Müdafiə Fondunun (DSMF) göstərdiyi elektron xidmətlərə aiddir.**

Bu barədə DSMF-nin sədri Elman Mehdiyev məlumat verib. E.Mehdiyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın əhəmiyyətindən bəhs edərək bildirib ki, "Ölkədə "elektron hökumət"in formalaşdırılmasına ciddi diqqət yetirilir və bu, məmur-vətəndaş münasibətlərinin informasiya və kommunikasiya texnologiyaları vasitələrindən istifadə etməklə sadələşdirilməsinə, şəffaflaşdırılmasına xidmət edir." E.Mehdiyev həmçinin qeyd edib ki, DSMF müasir informasiya texnologiyalarından istifadə etməklə interaktiv və informativ elektron xidmətlər vasitəsilə əhalini maraqlandıran, sığorta-pensiya sisteminə aid bütün məsələlərə aydınlıq gətirir. Bu məqsədlə 2014-cü ilin ötən dövründə DSMF 4 sayda mərkəzi, 6 sayda regional təqdimat keçirmişdir. Bununla yanaşı "Sığorta-pensiya sistemində elektron xidmətlər şəffaflığın əsas vasitəsidir" mövzusunda KİV arasında müsabiqə keçirilmişdir və yaxın vaxtlarda müsabiqə komissiyası nəticələri açıqlayacaqdır. Həmçinin bu mövzuda xüsusi reklam çarxı hazırlanmışdır ki, hazırda telekanallarda yayımlanır. DSMF elektron xidmətlərdən istifadə imkanının artırılması üçün ictimai çıxış məntəqələri şəbəkəsinin genişləndirilməsi, vətəndaşların "elektron hökumət" üzrə məlumatlılıq səviyyəsinin yüksəldilməsi yönündə fəaliyyətini bundan sonra da davam etdirəcəkdir.

# Baş Dövlət Yol Polisi İdarəsinin rəsmisi: "Bu sistem " Elektron hökumət" portalına yüklənəndən sonra bir sıra problemlər aradan qalxacaq"

**Qayda pozuntusuna yol verən sürücülərin cərimələnməsi sistemi mərkəzləşəndən və bu sistem "Elektron hökumət" portalına inteqrasiya olunduqdan sonra hazırda yaşanan bir sıra problemlər aradan qalxacaq.**

Bu məsələ ilə bağlı mətbuata açıqlama verən Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev xarici sürücülərin cərimələnməməsinin səbəblərini açqlayıb. Onun sözlərinə görə, xarici dövlət nömrə nişanlı avtomobillər də sürət həddini keçirsə, radarlar tərəfindən qeydə alınır. Onların avtomobillərinin fotoşəkillərinin çəkildiyini vurğulayan K.Əliyev informasiya bazasında həmin avtomobilin sahibi haqqında məlumatın olmadığını deyib:

"Ona görə də onlara qarşı elektron protokol tərtib olunması mümkün deyil. Ölkəmizdən tranzit məqsədilə istifadə edən və sürət həddini keçən avtomobil sahiblərinə qarşı cərimə tətbiq olunmur. Bizdə bu sistem hələ ki, Dövlət Sərhəd Xidmətinin informasiya bazasına qoşulmayıb. Buna görə də məlumat dərhal həmin bazaya ötürülə bilmir. Özü də bu hadisələrin sayı çox olmur. Bu, çox nadir haldır və yol hərəkətində ciddi təhlükə yaratmır. Amma bütün bu sistem mərkəzləşəndən və "Elektron hökumət" portalına yüklənəndən sonra məlumat Dövlət Sərhəd Xidmətinə də ötürüləcək. Bundan sonra həmin vətəndaşlar da Azərbaycan Respublikası ərazisində törətdikləri inzibati xətaya görə cərimə ödəyəcəklər".

AZDATACOM
Milli Telekommunikasiya Operatoru
internetin
dəqiq
ünvanı

AzDataCom şəbəkəsi !
Fiziki və hüquqi şəxslərə ən son texnologiyalara əsaslanaraq ADSL, korporativ şəbəkələrin yaradılması, məlumatların ötürülməsi və digər texnoloji həlləri təqdim etməklə sizin xidmətinizdədir.



www.e-gov.az

## 01.06.2014 – 30.06.2014-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| **1** | **Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet vasitəsilə verilməsi** | **TQDK** | **107858** |
| 2 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 53811 |
| 3 | Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi | TQDK | 6352 |
| 4 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 4305 |
| 5 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 4109 |
| 6 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2466 |
| 7 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1718 |
| 8 | Sığortaolunanın illər üzrə ödənişləri və pensiya kapitalı | Dövlət Sosial Müdafiə Fondu | 1600 |
| 9 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1556 |
| 10 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1212 |
| 11 | Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 913 |
| 12 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 763 |
| 13 | Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 689 |
| 14 | E-İmza - Serifikatların sifarişi | RYTN | 662 |
| 15 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 620 |
| 16 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | ƏƏSMN | 462 |
| 17 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 345 |
| 18 | Su borcunun internet vasitəsilə öyrənilməsi | "Azərsu" ASC | 329 |
| 19 | "Abituriyent ərizəsi"nin nömrəsinin axtariş sistemi | TQDK | 316 |
| 20 | Daşınmaz əmlakın ipotekasının əlavə qeydiyyatı və sonrakı ipotekanın dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 312 |

## 01.07.2014-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 69 | 142 | 211 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 30.06.2014 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 13034 | 1004 | 5201 | 19239 |

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmətlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.07.2014*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 18 | 9 | 11 | 14 | 13 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 59 | 46 | 46 | 54 | 53 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 8 | 6 | 6 | 7 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 9 | 1 | 0 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 14 | 12 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 2 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 31 | 31 | 32 | 31 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 10 | 32 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 22 | 16 | 22 | 22 | 14 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 13 | 17 | 14 | 13 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 8 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36-1 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 37-1 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **439** | **277** | **335** | **455** | **373** |

| | DÖVLƏT QURUMUNUN ADI | | |
|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | 2 | 2 | |
| 2 | "Azərsu" ASC | 2 | 3 | |
| 3 | "Azərenerji" ASC | 2 | 2 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | 6 | 9 | |
| 5 | “Elektron hökumət” portalı | 2 | 0 | |
| 6 | Baş Prokurorluq | 1 | 1 | |
| | **CƏMİ:** | **15** | **17** | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **YEKUN** | **439** | **277** | **350** | **472** | **373** |

www.e-gov.az

## 2014-cü ilin iyun ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 1 | 3 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 12 |
| 3 | Energetika Nazirliyi | 6 | 33 |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 25 |
| 5 | Xarici İşlər Nazirliyi | 1 | 33 |
| 6 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 5 |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 8 | 9 |
| 8 | Dövlət Gömrük Komitəsi | 5 | 199 |
| 9 | Dövlət Sosial Müdafiə Fondu | 15 | 18238 |
| 10 | Dövlət Statistika Komitəsi | 4 | 21 |
| 11 | Vergilər Nazirliyi | 9 | 397 |
| 12 | Ədliyyə Nazirliyi | 12 | 676 |
| 13 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 128 |
| 14 | Fövqəladə Hallar Nazirliyi | 3 | 25 |
| 15 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 7 |
| 16 | Səhiyyə Nazirliyi | 22 | 320 |
| 17 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 5 | 6 |
| 18 | Diasporla İş Üzrə Dövlət Komitəsi | 1 | 40 |
| 19 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 14 | 72 |
| 20 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 17 | 115510 |
| 21 | Dövlət Dəniz Administrasiyası | 6 | 10 |
| 22 | Təhsil Nazirliyi | 1 | 161 |
| 23 | Gənclər və İdman Nazirliyi | 4 | 8 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 24 | 2144 |
| 25 | İqtisadiyyat və Sənaye Nazirliyi | 6 | 11 |
| 26 | Kənd Təsərrüfatı Nazirliyi | 25 | 86 |
| 27 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 6 | 1029 |
| 28 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 11 |
| 29 | Daxili İşlər Nazirliyi | 2 | 858 |
| 30 | Dövlət Sərhəd Xidməti | 2 | 22 |
| 31 | Müəllif Hüquqları Agentliyi | 5 | 15 |
| 32 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 97 |
| 33 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 126 |
| 34 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | 1 | 19 |
| 35 | "AzərEnerji" ASC | 2 | 221 |
| 36 | "AzərSu" ASC | 2 | 416 |
| 37 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 4 | 44 |
| 38 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 66 | 60612 |
| 39 | Baş prokurorluq | 1 | 15 |
| 40 | Elektron Hökumət Portalı | 2 | 418 |
| 41 | Mərkəzi Seçki Komissiyası | 7 | 208 |
| | **CƏMİ** | **317** | **202290** |

# "Elektron hökumət" portalına daxil olanların sayı 427 854 nəfərə çatdı




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2014-cü ilin iyun ayının 30-a qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 799 944 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 427 854 nəfər olub. Belə ki, 427 854 nəfər ümumən 799 944 dəfə portala baxıb və 1 385 054 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 2 780 539 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 03 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 53.6%-ni yeni istifadəçilər, 46.4%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün iyun ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 129 805 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 75 582 nəfər olub. Həmin şəxslər 390 931 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 202 290 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 54 saniyə təşkil edib. İyun ayı ərzində portala müraciət edənlərin 52%-ni yeni istifadəçilər, 48%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 117255-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 350 ədəd olub.




© 2014 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az